AZƏRİTTİFAQ
Azərbaycan Kooperasiya Universiteti
2026-cı il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul
ELAN EDİR

Azərbaycan Kooperasiya Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 320s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2026-cı il üçün doktorant hazırlığı üzrə qəbul planları"na əsasən 2026-cı il üçün aşağıdakı ixtisaslar üzrə fəlsəfə doktoru proqramı üzrə qəbul elan edir:

İxtisasın şifri	İxtisasın adı	Fəlsəfə doktoru proqramı üzrə doktorantura, dövlət sifarişli və ödənişli əsaslarla			Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla)
		Cəmi	O cümlədən		
			əyani	qiyabi	
1	2	3	4	5	6
5304.01	İqtisadi fəaliyyət növləri	3	3	-	(3000 əyani) (2000 qiyabi)
5308.01	Ümumi iqtisadiyyat	6	5	1	(3000 əyani) (2000 qiyabi)
5312.01	Sahə iqtisadiyyatı	6	5	1	(3000 əyani) (2000 qiyabi)
	Cəmi:	**15**	**13**	**2**	

Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcək. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, oradan "Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək qeydiyyatdan keçməlidirlər. Portal vasitəsilə qeydiyyat cari ilin 21 may tarixindən 8 iyuna kimi aparılacaq.

Namizədlər doktoranturaya qəbul üçün aşağıdakı sənədləri elektron qaydada portala daxil etməlidirlər:

- kadrların şəxsi məlumat vərəqi;
- tərcümeyi – hal;
- 2 ədəd fotoşəkil (3x4);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi əsərlərin siyahısı (elmi əsərlər iddiaçının seçdiyi ixtisasa uyğun olmalıdır), elmi əsərləri olmayanlar seçdikləri ixtisasa aid olan mövzu üzrə referat təqdim etməlidirlər;

- ali təhsil haqqında diplomların və qiymət cədvəllərinin notarial qaydada təsdiq olunmuş surətləri (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil haqqında sənədin tanınması barədə Elm və Təhsil Nazirliyinin şəhadətnaməsi);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Fəlsəfə doktorluğuna namizədlər üçün xarici dil imtahanı Dövlət İmtahan Mərkəzində iyun ayında keçirilməsi nəzərdə tutulmuşdur.

Xarici dildən müvəffəq qiymət almış şəxslər "İxtisas" və "Fəlsəfə" fənnləri üzrə imtahanları seçdikləri universitetlərdə verəcəklər.

Əlavə məlumatlar üçün Azərbaycan Kooperasiya Universitetinin Elm və Doktorantura şöbəsinə müraciət etmək olar.

Əlaqə tel.: (+99412) 562 74 24

Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi, 93

REKTORLUQ